# GÖYƏRÇİN

İSSN-0207-4710
9
2022



# BABA MƏKTƏBƏ NECƏ GETDİ

(Ukrayna xalq nağılları)

Kənddə bir kasıb baba yaşayırdı. Bir gün o hazırlaşıb, kənd sovetinə getdi. Orada şokoladla çay içən bir müəllimə rast gəldi. Ondan soruşdu:

-Necə olur ki, sən bahalı konfetlə çay içirsən, mənim isə adi qənd almağa belə pulum yoxdu?

Müəllim gülə-gülə dedi:

-Çünki mən məktəbdə oxumuşam, əziyyət çəkmişəm, sən isə yox.

Baba evə qayıdanda yol boyu düşündü: "Sabahdan mən də məktəbə gedəcəm".

Ertəsi gün o, məktəbə getdi:

- Nə istəyirsən, ay baba? - müəllim ondan soruşdu.

- Mən məktəbə dərs oxumağa gəlmişəm.

- Eh, baba, bir az gecikmisən.

Baba sağollaşıb evə qayıtdı. Ertəsi gün hamıdan tez durub məktəbə getdi.

Müəllim ondan soruşdu:

- Nə istəyirsən, baba?

- Dünən dedin ki, məktəbə gecikmişəm. Ona görə bu gün hamıdan tez gəldim ki, məni məktəbə buraxasan.

Müəllim istehza ilə gülüb dedi:

-Siz məni düz başa düşməmisiniz, babacan. Mən demişəm ki, bu yaşda dərs oxumaq, təhsil almaq gecdi artıq.

Deməyə bir söz tapa bilməyən baba fikirli-fikirli evə qayıdanda yolda bir çanta tapdı. Çanta pulla dolu idi. Baba və nənə pulu yavaş-yavaş xərcləyib firavan yaşamağa başladılar. Ancaq bu xoşbəxtlik uzun sürmədi.

Qoca ilə qarı mübahisə elədilər. Baba nənənin üstünə qışqıranda qarı əsəbiləşdi və o bildirdi ki, sən başqasının çantasını oğurlamısan.

Biçarə qocanı tutub polis idarəsinə apardılar. Onu sorğu-sual etdilər, döydülər. Çantanın sahibinin tələbi ilə onu məhkəməyə göndərdilər.

Hakim qocadan soruşdu:

- De görüm sən pul ilə dolu çantanı nə vaxt və harda tapmısan?

Baba dedi:

-Mən o çantanı məktəbə gedəndə tapmışam.

-Hakim təəccüblə bir qocaya, bir də çantası itən cavana baxıb əminliklə dedi:

-Bu çanta cavan şikayətçinin yox, onu tapan qocanındır.

Baba çantanın içindəki pulları götürüb evə qayıtdı...





# ATLA ÖKÜZÜN YARIŞI

Bir dəfə Öküzlə At mübahisə etdilər ki, hansı daha sürətlə qaça bilər. At daha sürətli olduğunu söylədi, Öküz isə dedi:

- Mən səndən tez qaça bilərəm, amma çəkim çoxdur, ona görə qorxuram ki, qaçanda ayağımın altında yer çökə.

Mübahisəni həll etmək üçün onlar üzü aşağı qaçmağa başladılar.

Öküz müvazinətini saxlaya bilməyib, dərin bir xəndəyə yuvarlandı. O, özünü sındırmayıb Ata dedi:

-Gördün, torpaq ağırlığıma tab gətirməyib, çökdü.

Belə deyirlər ki, o vaxtdan öküzlər ancaq çubuqlananda qaçırlar.



Tərcümə edəni: R.Y.Əliyev